**Bakı şəhəri** **№1/33** **14 iyun 2018-ci il**

**“Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyası”nın yaradılması barədə**

Dünya Bankının “Şərq tərəfdaşlığı ölkələrində audit və hesabatlılığın gücləndirilməsi proqramı” (STAREP) çərçivəsində “Auditin keyfiyyətinə nəzarət sistemlərinin inkişaf etdirilməsi: tendensiyalar və imkanlar” mövzusunda 2018-ci il 26-27 aprel tarixlərində Vyana şəhərində keçirilmiş seminarda əldə olunan qabaqcıl beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə nail olunması və Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin “Auditin keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi barədə” 2018-ci il 11 may tarixli 1/21 nömrəli sərəncamının icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatasında aşağıdakı tərkibdə “Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyası” yaradılsın:

| | |
|---|---|
| Komissiyanın sədri: | İslam Bayramov – “MB Audit” MMC-nin direktor-auditoru |
| Komissiyanın katibi: | Bəhruzə Məmmədli – Auditin hüquqi təminatı və dövlət orqanları ilə iş idarəsinin rəis müavini |
| Komissiyanın üzvləri: | Elçin Cəfərov – Sərbəst auditor |
| | Kamil Hüseynov – “Güncel Bağımsız Denetim Danışmanlık ve Yeminli Mali Müşavirlik” MMC-nin auditoru |
| | Namiq Abbaslı – “ANR Audit” MMC-nin direktor-auditoru |
| | Şahbaz Məmmədov – “Cavid Audit” MMC-nin direktor-auditoru |

2. Komissiyaya tapşırılsın ki, 10 (on) gün müddətində “Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyası”nın Əsasnaməsinin layihəsini hazırlayıb təqdim etsinlər.

3. Bu sərəncamın mətninin Auditorlar Palatasının internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsi təmin edilsin.

**SƏDR** **V.NOVRUZOV**